# Görkəmli iqtisadçı alimin 80 illik yubileyi qeyd olunub

Martın 10-da Azərbaycan Texniki Universitetində (AzTU) görkəmli iqtisadçı alim, Dövlət mükafatı laureatı, iqtisad elmləri doktoru, professor Şamil Səmədzadənin 80 illik yubileyinə həsr olunmuş "Azərbaycanın qeyri-neft sektorunda innovasiya fəaliyyətinin genişləndirilməsi" mövzusunda respublika elmi konfransı keçirilib. AzTU-dan AZƏRTAC-a bildiriblər ki, əvvəlcə tədbir iştirakçıları ulu öndər Heydər Əliyevin universitetdəki büstü önünə tər güllər düzüb, əziz xatirəsini ehtiramla yad ediblər.

AzTU-nun rektoru, professor Havar Məmmədov uzun illər bu ali məktəbdə çalışmış görkəmli alimin elmi-pedaqoji fəaliyyətindən, iqtisadiyyat elminə verdiyi töhfələrdən danışıb.

Azərbaycan Auditorlar Palatasının sədri, professor Vahid Novruzov, Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutunun direktoru Nazim İmanov professor Ş.Səmədzadənin elmi yaradıcılığı və fəaliyyəti barədə fikirlərini bölüşüblər.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə ölkəmizin mövcud resurslarından yararlanmaqla iqtisadiyyatın dinamik inkişafını təmin edən prinsipial məsələlərdən və Azərbaycan dövlətinin bu problemlərin həllindəki rolundan danışıb.

Daha sonra "Azərbaycanda iqtisadiyyatın riyazi və instrumental üsullarının inkişaf mərhələləri", "Respublikada innovasiya probleminin tədqiqində professor Şamil Səmədzadənin rolu", "Davamlı inkişaf Azərbaycanın uğurlu gələcəyinin təminatıdır" mövzularında məruzələr dinlənilib.

Konfrans işini dörd bölmə üzrə davam etdirib.

İki gün davam edəcək konfransın bölmə iclaslarında ümumilikdə 160-dan çox məruzənin dinlənilməsi nəzərdə tutulur.